İPƏK YOLU, No.3, 2025, səh.210-215
https://doi.org/10.30546/SI.2025.3.197.345

# ANTONİYA SUZAN BYATTIN "MƏLƏKLƏR VƏ HƏŞƏRATLAR" ROMANINDA VİKTORİYA DÖVRÜNÜN ƏDƏBİ VƏ MƏDƏNİ ƏLAMƏTLƏRİ

**Şəhanə Musayeva**

Bakı Mühəndislik Universiteti, Bakı, Azərbaycan
e-mail: smusayeva@beu.edu.az

**Xülasə.** Antoniya Suzan Byattın "*Mələklər və Həşəratlar*" romanında Viktoriya dövrünün xüsusiyyətləri, ailə və cəmiyyət, kişi və qadın rolları, sənət və başqa mövzularla əhatə olunur. Məqalədə bu mövzuların romanda necə təcəssüm etdirildiyi təhlil edilmiş və yazıçının bəhs edilən dövrə yanaşması araşdırılmışdır.

**Açar sözlər:** A.S. Byatt, Mələklər və Həşəratlar, Viktoriya dövrü, cinsiyyət rolları.

## THE LITERARY AND CULTURAL ELEMENTS OF THE VICTORIAN ERA IN A.S. BYATT'S "ANGELS AND INSECTS"

**Shahana Musayeva**
*Baku Engineering University, Baku, Azerbaijan*

**Abstract.** In Antonia Susan Byatt's novel "*Angels and Insects*", characteristic features of the Victorian period are reflected through themes such as family and society, men's and women's duties, art and others. The article explores how these themes are portrayed in the novel and analyzes the writer's approach to Victorian values.
**Keywords:** A.S. Byatt, Angels and Insects, Victorian period, gender roles.

## ЛИТЕРАТУРНЫЕ И КУЛЬТУРНЫЕ ЧЕРТЫ ВИКТОРИАНСКОЙ ЭПОХИ В РОМАНЕ А.С. БАЙЕТТ "АНГЕЛЫ И НАСЕКОМЫЕ"

**Шахана Мусайева**
*Бакинский Инженерный Университет, Баку, Азербайджан*

**Резюме.** Роман Антонии Сьюзен Байетт «Ангелы и насекомые» затрагивает такие темы, как особенности викторианской эпохи, семья и общество, роли мужчин и женщин, искусство и другие. В статье анализируется воплощение этих тем в романе и исследуется подход писательницы к рассматриваемой эпохе.
**Ключевые слова:** А.С. Байетт, Ангелы и Насекомые, Викторианская эпоха, гендерные роли.

## 1. Giriş

Antoniya Suzan Byatt müasir Britaniya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biridir. O, həm böyük həcmli romanları, həm çoxsaylı hekayə topluları, həm də ədəbi-tənqidi məqalələri ilə tanınır. Byattın yaradıcılığı mövzu rəngarəngliyi və həyat materialının dərin şəkildə əhatə olunması ilə seçilir. O, çağdaş gerçəkliyin özünəməxsusluğunu həssaslıqla duyur və postmodernist yazıçı kimi təqdim edir. Lakin onun üslubunda postmodernist yazı xüsusiyyətləri ilə yanaşı, klassik ədəbiyyata bağlılıq da aydın şəkildə hiss olunur. Byatt özü də ədəbiyyatda mövcud olan köhnə formalara marağı olduğunu qeyd edir. Yazıçı Viktoriya dövrü İngiltərəsinin ədəbiyyatına və mədəniyyətinə böyük maraq göstərir. Heç də təsadüfi deyildir ki, bir çox əsərini də həmin dövrə həsr etmişdir. "Mələklər və Həşəratlar" daxil olmaqla onun bir sıra əsərləri İngiltərənin Viktoriya dövrünə olan marağını nümayiş etdirir. XX əsrin sonlarında postmodern gerçəkliyindən Viktoriya mədəniyyətinə daxil olmaq, onun ənənəvi, mənəvi, ruhi

dəyərlərini dərk etmək üçün imkan yaratdı. Məşhur tədqiqatçı A. Trineçka qeyd etmişdir ki, paradoksal olaraq neo-viktorian mətnlər həm keçmişi, həm də müasir dövrü təhlil etməyə imkan verir. Belə ki, ədəbiyyatın reviziyası keçmişi xatırlamaqla yanaşı, həm də indiki dövrü tərənnüm etməyə kömək edir [6]. Müasir Britaniya müəllifləri arasında Byatt neo-viktorian roman paradiqmasində yazan ən görkəmli sənətkarlardan biridir.

"Mələklər və Həşəratlar" romanı "Morfo Yevgeniya" və "İzdivac Mələyi" adlanan iki hissədən - dilogiya ibarətdir. Viktoriya dövründə baş verən hadisələr fonunda yazılan bu əsər ilk dəfə 1992-ci ildə nəşr olunmuşdur, yəni təsvir olunan hadisələrdən təxminən bir əsrdən çox sonra. Bu əsəri tarixi metafiksiya janrına aid etmək olar. Bu ifadəni ilk dəfə istifadə edən Linda Haçen olmuşdur, onun fikrinə görə tarix və ədəbiyyatın insan tərəfindən qurulan anlayışlar olduğu haqda nəzəri özünüdərk, keçmişin formaları və məzmunlarının yenidən düşünülməsi üçün əsas olur [3].

Viktoriyanizm bu əsərin hər iki hissəsində köklü bir şəkildə mövcuddur. Onları bir-biri ilə əlaqələndirən mövzular və problemlər, obrazlar, bədii vasitələr, detallar, fəlsəfi və intellektual fikirlərlə zəngin həyat təcrübələri bu əsərin əsasını təşkil edir. Yazıçı Viktoriya dövrünü həm mükəmməl şəkildə təsvir edir, həm də onu müasir dövrə uyğun yenidən formalaşdırır. O, həmin dövrün təzadlı məsələlərini üzə çıxarır və təhlil edərək anlamağa çalışır. Dövrün xüsusiyyətləri romanın hər iki hissəsində obrazlar səviyyəsində özünü göstərir, eyni zamanda, intellektual diskussiyalar, mənəvi axtarışlar, gender məsələləri, sözügedən dövrə xas həyat tərzi xüsusiyyətləri ilə oxuyuculara geniş bir dünyanı göstərir. Byatt narrativ strategiyalardan və dövrü xatırladan mətn parçalarından istifadə edərək Viktoriya dövrü təsiri yaradır. Əsərə bütövlükdə baxdıqda o, təbiət tarixinə aid bir kitabı xatırladır. Romanın baş qəhrəmanı da təbiətşünasdır və o, ailənin arılar və qarışqalar koloniyaları arasında çoxsaylı oxşarlıqlar üzə çıxarır. Belə kitablar həmin dövrdə əvvəlki illərdə olduğu kimi məşhur olmasa da, Henri Uilyam Beyts "Amazon Çayında Təbiətşünas" adlı əsərini dərc etdirmişdi. Byattın bu əsəri yazarkən həmin kitabdan təsirləndiyini fərz etmək olar.

Byatt əsərdə xüsusilə dəqiq məkanları və hadisələrin baş verdiyi dəqiq tarixləri qeyd edir ki, bunun sayəsində oxucu hansı dövrlərdən söhbət getdiyini anlasın. "Morfo Yevgeniya" kitabında hadisələr 1859-1964-cü illər arasında baş verir, "İzdivac Mələyi" kitabı isə bizi 1875-ci ilə aparır. Byatt, həmçinin qəhrəmanların, tikililərin, geyimlərin bütün təfsilatı ilə təsvirini verir və Çarlez Dikenz, Corc Eliot və digər Viktoriya dövrü yazıçılarını izləyərək dövrün mənzərəsini daha aydın təsvir etməyə çalışır. Bunu etməklə, Byatt Viktoriya dövrünün realist yazıçılarının dünyaya baxış bucaqlarını ortaya çıxarır. Yazıçı, o dövrün müasir təsvirini yalnız keçmiş dövrə müraciət edərək təqdim etdiyi üçün deyil, həm də onu bugünkü İngiltərədə yaşayan insanların həyatları ilə əlaqələndirir. Eyni zamanda, o, həmin dövrün çatışmazlıqlarını ifadə etməkdən də çəkinmir. Yazıçı həmin dövrün ənənəvi ikiüzlülüyünü tənqid edərək, cəmiyyətdə hökm sürən ədalətsizlikləri açıq şəkildə dilə gətirmiş və o zamanlar dilə gətirilməsi uyğun hesab edilməyən mövzuları da üzə çıxarmışdır [5].

“Morfo Yevgeniya”nın yaradılmasında Byatt üçün Viktoriya dövründə canlı və cansız varlıqların gözəlliyinin təsviri, ümümulikdə gözəllik konsepti önəmli rol oynayırdı və o, Uilyam Adamsonun cazibədar Yevgeniyaya qarşı olan dərin sevgi hisslərini göstərdi. Bu hisslər onu evlənməyə vadar edir və o, qayınatası Harold Alabasterin evində yaşamağa başlayaraq bir alim kimi təbiəti tədqiq etmə marağından uzaqlaşır. Byatt Viktoriya dövrünün məşhur yazıçılarından olan Corc Eliotun “Midlmarç kəndi” əsərindəki xarakterləri Lidgeyt və Ferbaterin öz əsərindəki Uilyam Adamson və Harold Alabasterin prototipləri olduğunu söyləyir. Eyni zamanda romanın birinci hissəsinin ağıllı qəhrəmanı olan Metinin obrazında Eliotun çox mütaliə edən qəhrəmanı olan Doroti Brukun müəyyən mənada təsiri aşkar olunur. Belə ki, o da Viktoriya dövrünün qadınlar haqqında olan dar dünya görüşündən kənara çıxır [2].

Əsərdə əşyaların dünyasının təsviri, əsasən, Viktoriya dövrünün gündəlik həyat tərzi və ailə problemlərinin ifadə edilməsində önəmli rol oynayır. Birinci əsərdə viktorian Bridli Holl sarayının təsviri vacib yer tutur. Bu qotik üslubda tikilmiş möhtəşəm bir malikanədir və burada hamı viktorian ailəsinin qayda qanunlarına uyğun olaraq öz xüsusi yerini tutur və yaşayır. Ailənin başçıları xüsusi otaqlara və kabinetlərə sahib olarkən, xidmətçilərin və digər işçilərin yeri narahat və qaranlıq idi. Bu ev, meşənin ortasında gözəl bir yerdə yerləşir və ailənin əylənə bilməsi üçün yaxşı təchiz olunmuşdur. O dövrün dili ilə desək, xeyirxah ingilis ailəsinin başçısı Harald Alabester keşiş idi və dini ritualları yerinə yetirirdi. Ledi Alabaster isə çox uşaq dünyaya gətirdiyi üçün ev işlərində fiziki olaraq çətinlik yaşayan bir qadın olsa da, əslində bütün ailənin idarə edilməsinin mərkəzində duran bir obraz idi. O viktorian idealının təcəssümü, yəni əsl “ev mələyi” idi və əsas məqsədlərindən biri qızlarını cəmiyyətin tənqidinə məruz qalacaq yaşa çatmadan əvvəl evləndirmək idi. İnteryerlər də elə detallı təsvir olunub ki, o dövrün ruhunu olduğu kimi təsvir edir. Harald Alabasterin kabineti altı guşəli forma və üzərindəki detalları ilə arı yuvasını xatırladırdı. Onun ortasında fənərə bənzər bir işıqlandırma pəncərəsi, altında isə böyük bir masa var idi, buna görə də məsləhət otağına bənzəyirdi. Divarlarda çoxlu kitab şkafları və kitablar var idi. Sözügedən kabinet sahibinin xüsusiyyətlərini göz önünə sərirdi. Buradakı elementlər onun çox araşdıran və düşünən, eyni zamanda zəngin və göstərişli əşyalara marağı olan bir insan olduğunu göstərirdi. Alabaster ailəsini yataq otağı da viktorianların çox sevdiyi qotika üslubuna uyğun dizayn edilmişdi. Burada qadınların otaqlarının üslubunun kişilərinkindən fərqlənməsi, qadınların əsas məşğuliyyəti olan əl işləri ilə dolu olması da cəmiyyətdə onlara verilən vəzifələrin müxtəlifliyini göstərməyə yardımçı olur. Bundan əlavə, Tennisonun evində olan divanın təsviri öz obyektinə uyğun gəlir, belə ki, onun naxışı məşhur Viktoriya dövrü rəssamı Uilyam Morrisə aiddir. Əsəri oxuyarkən, geyimlərin, bəzəklərin təsvirində biz viktorian toylarının ənənələrini görə bilirik. Ağ paltarlar, toy buketləri və güllərin toylarda istifadə edilməyə başlamasının elə kraliça Viktoriya tərəfindən olduğunu da görürük [4].

Əsərdə təsvir edilən məşğuliyyətlər də Viktoriya dövrünə uyğun gəlir. Alabaster ailəsinin dəbdəbəli evində qadın və kişilər sərgilər təşkil edir, meşədə gəzir, musiqi sədaları altında rəqs edir, mahnı oxuyur, əylənir, ov edir və müxtəlif oyunlar oynayırlar. İngiltərənin cənub-şərqində yerləşən kiçik kurort şəhəri Marqitdə, yəni “İzdivac Mələyi” əsərinin cərəyan etdiyi məkanda isə insanlar spiritizmə maraq göstərir, mistik ədəbiyyat nümunələri oxuyur, dünyəvi və axirət həyatı haqqında düşünür və fikir mübadiləsi edirlər. Bu da 19-cu əsrin 60-80-ci illərində hökm sürən ingilis reallığını oxuculara aşıq şəkildə göstərir. Byatt “Yevgeniya Morfo” əsərində Uilyan Adamsonun evlilik həyatından bəhs edir və hekayəni qəhrəmanların toyu ilə bitirmir. Daha öncə bu məsələdə təsirli yanaşmanı Byattın sevimli yazıçısı Corc Eliot nümayiş etdirmişdi. O, “Midlmarç” əsərində bir neçə ailənin evlilikdən sonrakı həyatını ətraflı şəkildə təsvir etmişdi. Lakin dövrün tələbləri və qadağaları ona imkan verdiyi qədər edə bilmişdi. Byatt isə bu mövzuya olduqca açıq və cəsarətli tərzdə yanaşmışdır.

Hər iki hissədə də yazıçının müasir bir qadının ironik səsi eşidilir və o kişilərin qadınlar haqqındakı ənənəvi Viktoriya dövrünə xas mövqelərini qəbul etmir. Əsərlərdə kişi və qadınların fəaliyyətləri qarşı-qarşıya qoyulur. Kişilər daha aktiv şəkildə məna və həqiqətin axtarışındadır. Qadınların vəzifəsi isə kişilərə ilham verməkdən və məqsədyönlü fəaliyyətə yönəltməkdən ibarətdir. Byatt Viktoriya cəmiyyətini göstərir, burada qadınların ailə və ev münasibətlərində böyük rolu vardır. “Morfo Yevgeniya” əsərində Alabaster ailəsinin həyatı ledi Alabaster və onun qızının ətrafında cərəyan edir. Belə ki, onlar uşaq dünyaya gətirir, qaydaları müəyyən edir, kişilər isə yalnız özlərinə xas olan işlərlə məşğul olurlar. Eyni zamanda Məti Krompton, Emili Tenison kimi xarakterlər göstərir ki, qadınların vəzifəsi yalnız uşaq dünyaya gətirmək deyil, onların da öz arzuları və onları reallaşdıracaq bacarıqları var. Onlar da kişilər qədər düşünə, təhlil edə və qərarlar verə bilərlər. Byatt istehza ilə söyləyir ki, məhz bu səbəbdən viktorianlar qadınların az düşünməli olduğunu söyləyirdilər. Qadınların intellektual düşünməsinin və elmlə məşğul olmasının əhəmiyyətsiz olduğu hər iki əsərdə söylənilir. Biz bu fikri həm Uilyam Adamson kimi qabaqcıl düşüncəli bir alimdən, həm romantik və idealist Hallamdan, həm də cəmiyyətdə digər kişi xarakterlərindən eşidirik. Yazıçı həmin dövrdə hökm sürən adət-ənənələri təsvir edərək viktorian ailələrində vəzifələrin dəqiq bölünməsi faktını göstərmişdir. Kişilər özlərinə xas olan işlər görməli, intellektual məsələlərlə məşğul olmalı ikən, qadınlar öz dünyalarına qapanmalı olurlar. Qadınlar bir qədər mütaliə edə, rəsm və ya musiqi ilə məşğul ola bilərlər, amma onların həyatının əksər hissəsi ev işləri ilə məhdudlaşır. Kişi obrazlarını təhlil etdikdə görürük ki, onların həyat tərzləri və xüsusiyyətləri də Viktoriya dövrü xarakteristikasına uyğun gəlir. Alim olan Adamson, keşiş Alabaster, şair Tennison və digər kişi obrazlar bir-birilə fəlsəfi və intellektual söhbətlər aparır. Elmlə dinin münasibəti, inam və həyatın mənası, insanın bu həyatdakı yeri haqqında müzakirələr apararaq Viktoriya dövrünün suallarına cavab tapmağa çalışırlar [1].

Byattın viktorianizmi yalnız bədii səviyyədə deyil, həm də qəhrəmanların əks olunmasında da özünü göstərir. O, bu əsərlərdə həm tarixi, həm də uydurulmuş xarakterləri təqdim edir. Onun personajlarından biri Viktoriya kraliçasının sevimlisi və dövrün ən görkəmli

şairlərindən biri Alfred Tenison idi. Adətən, yazıçının əsərlərində qadınlar Viktoriya dövrünün müəyyən xüsusiyyətləri ilə əks olunur. Məsələn, Lilias Papagay ağıllı və doğru davranışlara sahib qadın, Leydi Alabaster ev xanımı mələyi kimi təqdim olunmuşdur. Əsərdə fərqlənən qadın obrazlardan biri də Məti Kromptondur. O, Viktoriya qadınına xas olmayan yeni bir obrazdır. O, ağıllı, müstəqil və qeyri-adi bacarıqlara sahib bir qadındır. Məti dünyada baş verən hadisələrə maraqla yanaşır, elmlə yaxından məşğuldur, özünü daim inkişaf etdirir, insanları yaxşı anlayır, cəsarətli addımlar atır və ictimaiyyətdə ona qarşı olan mənfi fikirləri nəzərə almır. Onun xarakteristik xüsusiyyətləri göstərir ki, əslində Viktoriya qadını bizim həmişə təsəvvür etdiyimizdən daha mürəkkəb bir obrazdır. Yevgeniya Alabaster xarakteri təvazökar Viktoriya dövrü yazıçıları tərəfindən ifadə edilməyən, amma yazıçının söylədiyi həyati gerçəklikləri üzə çıxarmağa yardımçı olur. Təsadüfi deyil ki, Viktoriya dövrünün material və mənəvi çatışmazlıqlarını ən yaxşı ifadə edən şair olaraq tanınan Alfred Tenisonun obrazı birinci əsərdə ortaya çıxır və ikinci novellanın ən sevilən qəhrəmanlarından birinə çevrilir [7].

Viktoriya romanının əsas struktur elementi fərd ilə cəmiyyət arasındakı münasibətdir və bu münasibət yetkinləşmə prosesi ilə müşayiət olunur. Ənənəvi Viktoriya romanlarında yetkinləşən, adətən, qadınlar olur. Byatt isə tipik sujet xəttini saxlayır, lakin onun mərkəzinə qadın yox, kişi obraz yerləşdirərək bizə bildirir ki, bu hekayə heç də bizim gözlədiyimiz kimi olmayacaq. Viktoriyan romanlarda qəhrəmanlar səhvini düzəltdikdən sonra ya ölür, ya evlənir. “Morfo Yevgeniya” da isə səhv elə Adamsonun Yevgeniya ilə evlənməsi olur. Byattın əsərin içərisində verdiyi “bəs Uilyam ölənədək xoşbəxt yaşadı mı?” sualı oxucunu həm Viktoriya sujetlərində evliliyin rolu, həm də ümumiyyətlə həmin dövr haqda inandığı fikirləri yenidən nəzərdən keçirməyə təşviq edir. Viktoriya dövrü romanlarının əksəriyyətində qadın xarakterləri passiv, təşəbbüssüz varlıq kimi təsvir edilmişdir. “Morfo Yevgeniya”da isə kişi xarakter Adamson arı koloniyasındakı erkək funksiyasındadır, yəni kraliçaya yaxınlaşmaq üçün cəhd göstərməyə cəsarət etməyən formada. Yevgeniya isə onu planlı bir şəkildə idarə və manipulyasiya edir [7].

**Nəticə.** A.S. Byattın “Morfo Yevgeniya” və “İzdivac Mələyi” adlı hissələrdən ibarət olan romanı “Mələklər və Həşəratlar” Viktoriya dövrünə aid ünsürləri özündə ehtiva edir. Əsər Viktoriya dövrünün mədəni, tarixi və bədii tərəfləri ilə sıx əlaqəyə girərək, həmin dövrü postmodernist nöqteyi-nəzərdən yenidən canlandırır. O, bu təsviri yenidən edərkən stilizasiya və pastişdən istifadə edir və mövcud olan ideolojik və fəlsəfi tendensiyaları, elmi və dini müzakirələri, cəmiyyətdə və ailədə kişi və qadınların rollarını ətraflı şəkildə təsvir edir. Əsərlər eyni zamanda Viktoriya dövründə mövcud olan qarışıq münasibətləri göstərərkən, eyni zamanda Meti Krompton və Emili Tenison kimi ağıllı, bacarıqlı və azad ruhlu obrazlar da daxil olmaqla yeni Viktoriya dövrü xarakterlərini üzə çıxarır. Bütün bu söylənənlər “Mələklər və Həşəratlar” əsərini Viktoriya dövrünün mürəkkəbliyinin təhlilini edən, sanki dövrün bədii bir ensiklopediyası kimi dəyərləndirilə bilər.

Romanda viktorian əlamətlərin müəyyən edilməsi bizə hər iki kitabda bu dövrü dərindən hiss etməyə imkan verir. Yazıçı bu dövrü stilizasiya və pastiş üsulu istifadə etməklə yenidən canlandırır. Həmin dövü canlı təsvir vasitələri olan viktorian malikanəsi, interyerlər, cəmiyyətdə qadın və kişi rollarının fərqliliyi, ənənəvi ailə modelləri, həyat tərzi, məşğuliyyətlər və başqaları vasitəsi ilə təsvir edir. Müasir Britaniya ədəbiyyatında viktorian keçmişə müraciət edən əsərlərinin sayının artması bizə neo-viktorian romanının əhəmiyyətli bir tendensiya kimi mövcudluğunu göstərir.

**Ədəbiyyat**


1. Buda A. (2015), In the postmodern mirror: Intertextuality in Angels and Insects by Antonia Susan Byatt. Journal of Language and Cultural Education, Vol.3, No.2, 66-70.
2. Fletcher J. (1999), The Odyssey Rewoven: A.S. Byatt’s Angels and Insects. Classical and Modern Literature, Vol.19, No.3, 217-231.
3. Hutcheon L. (1988), A Poetics of Postmodernism: History, Theory, Fiction. Taylor & Francis Group, 105.
4. Mambrol N. (2022), Analysis of A.S. Byatt’s Angels and Insects.
5. Primorac A., Balint-Feudvarski I. (2011), Gender Subversion and Victoriana in A.S. Byatt’s Morpho Eugenia. Zbornik radova Filozofskog fakulteta u Splitu, No.4, 221-235.
6. Tryniecka A. (2015), The revisionary influence: Neo-victorian fiction and the past redeemed. Athens Journal of Philology, Vol.2, No.4, 255.
7. Анненкова О. (2024), Диптих А.С. Баетт Ангелы и Насекомые как образец постмодернистской Викторианы. Сборник научных Трудов (Филологические Науки), No.23, 6-12.